# Samir Kaçayevin qayıdışı

## Xalq Bankın “Xalq Əmanəti” layihəsi çərçivəsində “Samir Kaçayev. Heykəltəraşlıq” bədii albomunun təqdimatı keçirildi




**”Əziz Samir! Bu gün sənin bayramındır. Əsərlərin divarlar boyu düzülüb. Əsərlərinin qovuşduğu kitab nəşr olunub. Sən uzun bir ömür yaşamalı idin və bu ömür içərisində sənin çoxlu sərgilərin olacaqdı. Təəssüflər ki, sən bu bayramda iştirak eləmirsən. Gözəlliklə hər görüş bayramdır.**

Ancaq kədərlisi budur ki, bu gözəlliyi və bayramı yaradan Samir Kaçayev bizimlə yoxdur!” Xalq Bankın ”Xalq Əmanəti” layihəsi çərçivəsində bu ilin aprel ayında erməni silahlı birləşmələrinin cəbhə xəttində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə qəhrəmancasına şəhid olan gənc heykəltəraş Samir Kaçayevin yaradıcılığına həsr olunan ”Samir Kaçayev. Heykəltəraşlıq” bədii albomunun təqdimatı şəhid əsgərə yuxarıdakı məzmunda müraciətlə başladı. Layihənin sayca on dördüncü nəşri - gənc sənətkarın qısa, lakin olduqca dolğun ömür və yaradıcılıq yolunu əks etdirmə baxımından diqqət çəkir. Gənc sənətkarın 50-dən çox heykəltəraşlıq və qrafika işlərinin daxil edildiyi albomda Samir Kaçayevin həyat və yaradıcılığının bütün mərhələləri əks olunub.

Samir Kaçayev 2014-cü ildə ”Xalq əmanəti”nin görkəmli rəssam Mikayıl Abdullayevə həsr olunan nəşrinin təqdimatında iştirak etmək üçün Xalq Bankda keçirilən tədbirə qatılıb. Ancaq gənc o zaman haradan biləydi ki, bir gün onun əsərləri də xalqın əmanətinə çevriləcək. Gənc yaşında ikən yaradıcılığı yarıda qırılacaq, müəllimləri, dostları, qohumları onun ruhunun, yaradıcılığının işığına - əsərlərindən bəhs edən albomun təqdimatına yığışacaqlar.

Albomun səhifələrində Samir Kaçayevin gənclərə örnək olan, vətənpərvərlikdən yoğrulan həyat yolundan bəhs edilir. 1994-cü il, mart ayının 6-da Şamaxı rayonunun Çuxuryurd kəndində sadə bir ailədə dünyaya göz açıb Samir Kaçayev. Kiçik yaşlarından sənətə böyük marağı olub. Rəsm çəkməyi, heykəl düzəltməyi çox sevib. Orta məktəbi bitirib Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına daxil olub. 2015-ci ildə akademiyanı müvəffəqiyyətlə bitirərək heykəltəraş ixtisasına yiyələnib. Magistraturaya daxil olduqdan sonra hərbi xidmətə yollanıb. Aprel ayının 1-dən 2-ə keçən gecə düşmən təxribatı nəticəsində alovlanan döyüşlərdə torpaqlarımızın bütövlüyü uğrunda şəhid olub. Samir Kaçayev göstərdiyi rəşadətə görə ölümündən sonra ”İgidliyə görə” medalı ilə təltif olunub.

### MİLLƏTƏ BAĞIŞLANAN ƏMANƏT

80-ci illərin sonlarından Azərbaycanın böyük faciələrlə üzləşdiyini, torpaqlarımızın işğal olunduğunu, Azərbaycana qarşı Ermənistan və onu dəstəkləyən qüvvələrin təcavüzünün davam etdiyini deyən **millət vəkili, akademik Rafael Hüseynov** bir gün işğal altında olan torpaqlarımızın azad olunacağını, dağıdılmış, qəsb edilmiş şəhərlərimiz, qəsəbələrimiz və kəndlərimizin bərpa olunacağını, əvvəlkindən də gözəl görkəm alacağını əminliklə söylədi: ”Ancaq vurulan yaraların izləri çox dərindir. Xüsusən mədəniyyətimizə vurulmuş zərbələr, itirdiyimiz insanlar heç vəchlə qayıdan deyil. Müharibə seçmədən aparır. Bu müharibə Samir kimi neçə-neçə gənci əlimizdən aldı. Hər bir itki milləti ağrıdır. Lakin Samir kimi insanların itkisi daha ağırdır. Samir kimi insanların itkisi ona görə ağırdır ki, onlar körpüdürlər - öz aldıqlarını gələcək nəslə ötürürlər”. S.Kaçayevin yaşadığı qısa ömür ərzində böyük işlər görməyə müvəffəq olduğunu, yaratdığı əsərləri, sənətə baxışı, insanlara münasibəti, vətənə sevgisi ilə onu tanıyanların rəğbətini, həmkarlarının hörmətini, minlərlə həmvətəninin dərin ehtiramını qazandığını qeyd edən millət vəkili gənc heykəltəraşın əsərlərinin yetkin olduğunu vurğuladı: ”Samirin bəxti gətirmişdi ki, yaradıcılıqla dolu və böyük sənətkarların hərəkət elədiyi bir mühitin içərisində idi. Əgər Allah istedad veribsə, o mühitin içərisində sən hansısa gözəlliyi yarada biləcəksən. Samirin əsərlərində yaşından çox müdriklik var. O, dünyanı, insanları başqa cür seyr edib. Samir sağ qalsaydı şübhəsiz ki, dünya səviyyəli memar olacaqdı”.



Samirin yoldaşlarının onu mülayim, səmimi, əxlaqlı dost kimi xatırladığını deyən R.Hüseynov gənc sənətkarın içərisində parlaq bir heykəltəraşın yaşadığını qeyd etdi: ”Samirin ruhundakı və əlindəki plastika o qədər güclü idi ki, ilk əsərlərinin hər birində görünməkdədir. Onun əsərləri xalqımızı daha da zənginləşdirməliydi. Ona görə də ömrü xalqın ömrünə qarışdı”. Millət vəkili S.Kaçayevin əsərlərini yaymağın vacibliyini qeyd etdi: ”Qoy onun əsərləri bizim muzeylərdə olsun. Ziyarətçilər həm cəmi 22 il yaşayan və həyatı yarıda qırılan gəncin sənətini, istedadını görsünlər, həm də Azərbaycanın böyük faciəsini, üz-üzə qaldığımız bəlaları, müstəqilliyimizi hiss etmək yolunda hansı aşırımlardan keçdiyimizin şahidi olsunlar”. R.Hüseynov üzünü Samir Kaçayevin valideynlərinə tutdu: ”Siz əsil qəhrəmanlarsınız. Sizin bu gün danışmağınıza ehtiyac yoxdur. Bütün sözləri övladınızın yaratdığı əsərlər deyir”.



Millət vəkili Xalq Bankın ”S.Kaçayev. Heykəltəraşlıq” nəşrinə toxunaraq kitabın təkcə gənc sənətkarın dostlarına, valideynlərinə, dərs aldığı akademiyaya deyil, bütün Azərbaycana, xalqımıza ərməğan olduğunu dedi: ”Samirə qısa ömrü içərisində onu daim yaddaşlarda saxlayacaq əsərlər yaratmaq nəsib oldu. Bu kitabın səhifələrində həmin əsərlər öz əksini tapıb. Bu nəşr uzun zaman yaşayacaq, vərəqlənəcək və Samir haqqında daha gözəl sözlərin deyilməsinə təkan olacaq. Samirin yaradıcılıq salnaməsinə çevrilən bu kitab, xalqa bağışlanan əmanətdir”.

### QƏBULOLUNMAZ İTKİ

**Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı, akademik Ömər Eldarov** Samir Kaçayevi intellektli, ziyalı tələbə kimi xatırladı: ”Samir institutu bitirib diplom aldı, magistraturaya daxil oldu. Birdən hər şey yarıda qırıldı. Müharibə nə qədər insanların həyatını qırır. Xüsusən də itirilən insanlar gənc olanda ölüm daha təsirli olur. Bəşəriyyət tarixində həmişə müharibələr fəlakət gətirib. Biz də bunun acı nəticəsini gördük. Müharibə gənc, istedadlı, yaraşıqlı heykəltəraşın həyatına son qoydu. Bütün itkilər ağırdır. Kimsə xəstələnir, yaxınları onun sağalmayacağını bilib buna tədricən alışırlar. Ancaq qəfil itkilərə alışmaq olmur. Birdən qırılan həyata necə alışmaq olar? Samirin ölümü bizim üçün belə ağır itkilərdən biridir”.

Samir Kaçayevlə aralarında müəllim-tələbə münasibətinin deyil, dost münasibətinin olduğunu deyən **müəllimi Akif Əsgərov** tələbəsinin xüsusi istedadından söz açdı: ”Samir antik sənətlə maraqlanırdı. Mən ona ”antik sənəti bilməyən heykəltəraş ola bilməz” - deyə məsləhət vermişdim. O, məsləhətlərə qulaq asır və əməl edirdi. Samir hər dəfə kompozisiya hazırlayıb gətirəndə: ”Hiss edirəm ki, burda sənin ürəyin var” deyirdim. Onun hər əsəri yenilik idi, hər əsəri yeni söz deyirdi. Samirin hər əsərində ürək görərsiniz”. ”Samir Kaçayev. Heykəltəraşlıq” kitabını ”Samirin qayıdışı” adlandıran A.Əsgərov ”İstedadlar ölmürlər. Ona görə də Samir həmişə yaşayacaq” - dedi.

**Tələbə dostu Zamik Rzayev** S.Kaçayevin ölümünü təkcə dostları və ailəsinin itkisi deyil, bütövlükdə Vətənin itkisi adlandırdı: ”Biz onun itkisini qəbul edə bilmirik”. Samirlə dörd il bir kursda oxuduğunu və yaxın dost olduqlarını qeyd edən Z.Rzayev magistraturaya da birlikdə daxil olduqlarını xatırladı: ”Güman edirdik ki, birgə oxuyacağıq. Ancaq həyat elə gətirdi ki, belə bir sülhsevər insan müharibənin qurbanına çevrildi”.

### İLK VƏ SON İMZA

Samir Kaçayev rus dilində təhsil alsa da, ana dilində səlis yazmağı bacarıb. Sonuncu məktubunu da ölümündən iki gün əvvəl ilk dəfə yeni imzası ilə **əsgər dostu Müşfiq Bayramova** yazıb: ”Biz ön cəbhədə bir yerdə xidmət etmişik. Düşüncələrimizin, baxışlarımızın oxşarlığı bizi yaxın dostlara çevirdi”, - deyə M.Bayramov dostu ilə bağlı xatirələrini bölüşdü: ”Fevral ayında bizi xidmət etmək üçün cəbhə xəttinə yaxın ayrı-ayrı hərbi hissələrə göndərdilər. Mart ayında ad günü olanda mən ona məktub yazıb təbrik etdim. Aprelin 1-də ondan cavab məktubu aldım. İki gün sonra isə onun ölüm xəbərini eşidəndə gözlərimə inanmadım. Bu, mənim üçün heç vaxt unutmayacağım ağır xəbər oldu”.

S.Kaçayevi heç vaxt görmədiyini, yalnız telefonla əlaqə saxladığını deyən **Müdafiə Nazirliyinin əməkdaşı Faiq Qəribov** gənc heykəltəraşı qürurlu əsgər kimi dəyərləndirdi: ”Samir hərbi xidmətdə heç kimə güvənmədi. O, döyüş əməliyyatında öndə gedən əsgər oldu. Samirin həyatı gənclərə örnəkdir. Bu cür vətənpərvər gənclərimizin olması ilə qürur duyuruq”.

Çıxış edənlər Xalq Bankın ”Xalq Əmanəti” layihəsi çərçivəsində nəşr olunan kitabları xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması baxımından yüksək dəyərləndirərək gələcəyimiz üçün qiymətli xəzinə adlandırdılar.

Həmçinin qeyd edildi ki, Samir Kaçayevin əsərlərinin sərgisi dekabr ayının 17-dən başlayaraq Xalq Bankının Əsas binasında (Ünvan: Bakı şəh., İnşaatçılar prospekti, 22L), fevral ayından isə heykəltəraşın doğulduğu Şamaxı rayonunda Xalq Bankın ”Şamaxı” filialında (Ünvan: Şamaxı şəh., Şəhriyar küç.1) fəaliyyət göstərəcək. Sərgini iş günləri saat 18:00-dan 21:00-dək, şənbə və bazar günləri saat 10:00-dan 16:00-dək seyr etmək mümkündür. Giriş sərbəstdir.



**Təqdimatda iştirak etdi**
**Təranə Məhərrəmova**